RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 108 (9563) 24 may 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Səmimiyyət, dostluq və qardaşlıq



## Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycana dövlət səfəri edib

Azərbaycan Respublikasına dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olub. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub. Prezidentlərin geniş tərkibdə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycan Respublikasına dövlət səfəri mayın 23-də başa çatıb.

2-4